# AZƏRBAYCANIN ORTA ƏSRLƏR SİYASİ HÜQUQİ FİKRİNDƏ QANUN VƏ QANUNÇULUĞA DAİR İDEYALARA İSLAMIN TƏSİRİ

**Aqşin QULİYEV**[77]
**Hüquq üzrə fəlsəfə doktoru**

**Resume:** Fight against religious fanatism has appeared belonging to yourself in definite forms. These has been phrase of the ignorance forms by patriot and humanist thinkers in the scientific photo from opposition of people showing resistance to religious organizations from development without return of the worldly sciences and culture, -Azerbaijan sharp critical.

**Keywords:** religious, fanatism, religious organizations, sciences and culture

**Резюме:** Борьба против религиозного фанатизма казалась принадлежащей вам непосредственно в определенных формах. Они были фразой форм невежества мыслителями патриота и гуманиста в научной фотографии от оппозиции людей, показывающих сопротивление религиозным организациям от развития без возвращения мирских наук и культуры, -Азербайджан, острый важный.

**Ключевые слова:** религиозный, фанатизм, религиозные организации, науки и культура

Real həyatda cəmiyyətin inkişaf prosesinə, eləcə də sosial hadisələrin (dövlətin, hüququn, dövlət hakimiyyətinin,siyasətin, qanunun və i.a.) əmələ gəlməsi mənşəyinə yanaşma baxımından digər dünya dinləri kimi islam dini də sxolastikaya və mifik təfəkkürə əsaslandığı halda, fəlsəfə, hüquqi dünyagörüş, o cümlədən siyasi-hüquqi ideologiya elmi faktlara və məntiqi-əqli nəticələrə əsaslanmışdır. Cəmiyyətdə baş vermiş və indidə baş verməkdə, inkişaf etməkdə və təkmilləşməkdə davam edən müxtəlif sosial hadisələr, habelə cəmiyyət həyatının gerçəkliklərinə dair islamın dini təssəvürləri öz ifadəsini ilahiyyatdan bəhs edən əsərlərdə, hüququ fikir və görüşlər isə müstəqil öyrənmə, tədqiqat predmetinə malik olan elmi əsərlərdə tapır. Təbii olaraq bu, heç də elə bir təsəvvür yaranmamalıdır ki, cəmiyyətdə baş verən müxtəlif sosial hadisələrin mənşəyinin və mahiyyətinin dərk edilməsinə yönələn dini-mistik və mütərəqqi, elmi görüşlər bir-birini qətiyyətlə rədd və ya inkar edirlər. Əksinə, bu iki görüşlər sisteminin və əks qütblü ideologiyanın (o cümlədən hüquqi ideologiyanın) qarşılıqlı əlaqəsi onların hər birinin müstəqil surətdə ictimai şüurda tutduğu yeri müəyyən edir.yuxarıda göstərilənlər dini və hüququ görüşlər sisteminin, hər iki ideologiyanın qneseoloji aspektini səciyyələndirir.

Bu məsələnin sosial aspekti isə cəmiyyətin sinifli, yəni dövlət təşkilatının təşəkkül tapdığı mərhələyə qədəm qoyması ilə xarakterizə olunur. Dövltəqədərki cəmiyyətdən fərqli olaraq, artıq siyasi təsisat kimi mövcud olduğu cəmiyyətdə hökmran zümrə ictimai şüurun öz mənafeyinə və maraqlarına cavab verən, xidmət edən, özünün hakimiyyət mövqeyini müdafiə edən əlverişli formasını qəbul edir.

Bəşər cəmiyyətinin inkişaf tarixi və bu tarixin qanunauyğun prosesləri göstərir ki, erkən orta əsrlər şəraitində eləcə də feodalizmin sonrakı inkişaf mərhələlərində dini ideologiyanın ortodoksal nümayəndələri ictimai şüurun bütün formalarının, o cümlədən siyasi və hüquqi təlimlərin dini dünyagörüşə və ideologiyaya tabe edilməsi, sosial həyatın bütün sahələrində (həmçinin də dövlət işlərinin idarə olunmasında, hətta daxili və xarici siyasətin həyata keçirilməsində, qanunyaratmada) dinin şəriksiz, qeyri

[77] AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstutitutu

məhdudu inhisarçı hökmranlığı uğrunda qətiyyətli və aramsız mübarizə aramışdır (belə mübarizə halları müsəlman Şərqində müasir dövrdə də müşahidə olunur). Lakin bununla belə ortodoksal din xadimləri insanların fiziki və əqli yaradıcılıq, siyasətlə məşğul olma və hüquyaratma fəaliyyəti sahəsində öz inhisarçı hökmranlığını tam bərqərar edə, təbii-tarixi proseslərin irəliyə doğru hərəkətinin qarşısına sədd çəkə bilməmişdir.

Müxtəlif xalqların dövlətçilik tarixi belə bir danılmaz faktın da şahididir ki, barışmaz ziddiyətlərin mövcud olduğu cəmiyyətlərdə (ölkələrdə) dini ideologiya həmişə apraricı mövqelərdən birini tutmuşdur. Dinin belə hökmran mövqeyinə bəzi müasir dövlətlərdə (məsələn, İran İslam Respublikasında, Əfqanıstanda, Səudiyyə Ərəbistanında) indi də təsadüf olunur.

Lakin bundan belə nəticə çıxarmaq olar ki, dini ideologiya cəmiyyətin istisnasız olaraq bütün üzvlərinin ağıl və iradəsinə, fikir və düşüncəsinə şəriksiz olaraq hakim kəsilmişdir. Fəlsəfənin ictimai-siyasi və hüquqi fikrin, bütövlükdə elmin tarixi göstərir ki, qabaqcıl fikirli ziyalı və mütəfəkkirlər, elmin müxtəlif sahələrinin nümayəndələri mütərəqqi ideologiyanın dni ideologiyadan emansipasiya edilməsi uğrunda ideoloji mübarizənin bütün mümkün formalarından əzin və ardıcıllıqla istifadə etmişlər.

Yaxın və Orta Şərqin Bəhmənyar əl-Azərbaycani, Əl-Mərri, Zəkəriyyə Razi, Əl- Fərabi, Ömər Xəyyam, Mahmud Şəbüstəri, Fəzullah Nəimi, İmadəddin Nəsimi və başqaları kmi mütəfəkkirləri dini fanatizm və qatı mövhumatçılıq əleyhinə həyatları boyu cəsarətlə mübarizə aparmışların yalnız ən görkəmliləridir.

Hakim sinif və onun arxalandığı dini ideologiya xalq kütlələrini sosial-iqtisadi, siyasi cəhətdən əsarətdə saxlasalar da, qabaqcıl ideyaların və mütərəqqi fikirlərin üzərinə kölgə sala bilməmiş, humanist düşüncəli mütəfəkirlərimizin siyasi və hüquq dünyagörüşü, ideyaları üzərində öz sərt hökmranlığını bərqərar edə bilməmişdir. Mürtəce ictimai qayda,ədalətsiz qanunlar əleyhinə yönələn azadfikirlilik faktiki olaraq hökmran təbəqənin ideologiyasına qarşı istiqamətləndirmişdir.

IX yüzillikdən başlayaraq Azərbaycanda hakim dini ideologiyaya çevrilmiş islam qabaqcıl fikirli mütəfəkkirlərimizin dünyagörüşünə təsir göstərdiyi kimi, bütövlükdə hüquq sisteminin də şəriət normaları (müsəlman hüququ) əsasında yenidən formalaşmasında böyük rol oynamışdır.

Mütərəqqi qüvvələrin din (xüsusilədə dindini ehkamlar), idealizm və siyasi mürtəcelik (mühafizəkarlıq) əleyhinə ideoloji mübarizəsi Azərbaycanda siyasi və hüquqi fikir tarixinin parlaq səhifələrindən biridir.

Dini fanatizm və mövhumatçılıq əleyhinə mübarizə özünə məxsus müəyyən formalarda təzahür etmişdir. Bu formalar dini təşkilatlara qarşı duran xalq müxalifətindən, mürtəce dindarlardan və digər qara qüvvələrin ciddi müqavimətinə baxmayaraq, dünyəvi elmlərin və mədəniyyətin dönmədən inkişafından, habelə Azərbaycandan vətənpərvər və humanist mütəfəkkirləri tərəfindən cəhalətin elmi şəkildə kəsgin tənqidindən ibarə olmuşdur.

Azərbaycandı islamın siyasi ideologiyasının qanun və qanunçuluqla bağlı fikirlərə təsiri, hər şeydən əvvəl, şəriətin özünün sabitliyindən və möhkəmliyindən irəli gəlmişdir. Şəriətin sabitliyinin və möhkəmliyinin səbəblərindən danışarkən onun adət hüququna-islam dinini qəbul etmiş xalqların, o cümlədən Azərbaycan xalqının adət hüququna (hüququ Quranda adətlərinə) münasibətini qeyd etməmək olmaz.

Şəriət və onun qırılmaz surətdə bağlı olduğu müsəlman hüququ Ərəbistan yarımadası əhalisinin adət hüquq normalarından irəli gələn, zaman keçdikcə

maddiləşərək yazılı qanunlar formasında təşəkkkül tapmışdır. Bu də öz sistemləşdirilmiş əksini müsəlman hüququnun əsas mənbələri olan Quranda və Sünnədə tapmışdır. Xilafətin işğalçılıq siyasətigedişində şəriət normaları məğlub edilmiş digər xalqlar kimi, Azərbaycan xalqının da adət hüquq normalarını özündə təcəssüm etdirmişdir.

İlk müsəlman icması Quranda ehtiva olunan əmrlər və sərəncəamlər əsasında idarə edilmişdir. Xilafətin genişlənib inkişaf etməsilə əlaqədar olaraq yni hüquq münasibətlərinin də prsesi getmişdir.

Əməvilərin hakimiyyəti dövründə hakimiyyət artıq teokratik xarakterini tədricən itirdiyindən, dövlət işlərinin idarəçiliyi üçün Quranda ehtiva olunmuşgöstərişlər kifayət etmişdi. İctimai və siyasi məsələlərini həllində lazımi əlavələrə, əlavə izah və təfsirlərə, şəhrlərə kəskin ehtiyac duyulmağa başlamışdır.

Bu baxımdan peyğəmbərin əshabələrinin və onların ardıcıllarının hədisləri (rəvayətləri) mühüm vasitə olmuşdur. Hədislər toplusunun, yəni Sünnənin köməyi ilə həll edilə bilmyən mübahisəli məsələlərdə şəriət normalarını tətbiq edənlər İcmaya (din xadimlərinin yekdilli qərarlarına, onların rəylərinə) əsaslanırdılar. Bu da öz növbəsində bir növ presidenti xatırladırdı. Hökm çıxarılarkən hədisləri zəruri hesab edənlərə «hədis tərəfdarları» («əshab əl-hədis »), rəyləri və mülahizələri əsas, rəhbər tutanlara «rəy tərəfdarları» («əshab əl qiyas ») deyilirdi. Birinci halda qatı ortodoksal islam mövqeyindən çıxış edilir, ikinci halda isə müsəlman hüquq sisteminə radikalizm elementləri müncər edilirdi.

Beləliklə Quran, Sünnə, İcma və Qiyas müsəlman hüququnun əsasları (üsul əl-fiqh) mənbələrini təşkil edirdi və indəi də etməkdədədir. Bu əsaslardan və mənbələrdən istifadə edilməsindən asılı olaraq müsəlman Şərqində bir neçə sünni hüquq məzhəbi (müsəlman hüquq məktəbləri) meydana gəlmişdir.müsəlman hüquq məktəbinn məşhurları hənəfilik, Maliklik, Şafiilik və Hənbəlilik (bu məktəblərrnların yaradıcılarının adı ilə adlandırılmışdır) olmuşdur.

Lakin ortodoksal islamın ideoloqları şriət ehkamlarının qızğın müdafiəsinə qalxaraq, sərbəst düşüncəyə yol verməк istəmirdilər. Onların bu ideya mövqeyi öz əksini ortodoksal sünnilikdə –ənbəlilik hüquq məktəbinin ideologiyasında tapmışdır.

XI-XII yüzillikdə islam ideologiyasının və onun ehkamlarının müdafiəsinə ən yaxşı köməyi Əbu Həmid Məhəmməd İbn Məhəmməd əl-Qəzali (1059-1111) göstərmişdir.

Qəzali antik fəlsəfənin tənqidi mövqeyinin tutsa da, o bu fəlsəfi sistemdə həm Platonun, həm də Aristotelin, eləcə də Şərq fəlsəfi məktəbinin görüşlərinin elementləri vardır. Lakin o, bunlardan islam dini ehkamlarının əsaslandırması üçün istifadə etmişdir. Tədqiqat əsərlərində Qəzalini Yaxın və Orta Şərqin Roma Akvinatı adlandırması heç də təsadüfü deyildir. Dominakan monaxı Roma akvinat isə platonizmin alovlu müdafiəçisivə dayağı olmuşdur. O dövlətin və hüququn mənşəyinə dair teoritik nəzəriyyəninin görkəmli nümayəndələrindən biri hesab olunur.

VIII yüzillikdə ərəb xilafətində müşahidə olunan təbqələşmə, hakim dairələr içərisində varlanmaya, dəbdəbəli həyat sürməyə güclü meyl göstərməsi müsəlman icmasının aşağı zümrələrində ciddi narazılıqlara səbəb olmuşdur. Bu da öz ifadəsiniən əvvəl passiv formada (asketizdə) tapmışdır. Zahidlər (aspektlər) zçngin həyat tərzinə nifrət bəsləyərək mənəvi kamilliyi maddi sərvətləri, var-dövltə qarşı qoyurdular.

İctimai-siyasi hadisələrinkəskinləşdiyi və ideoloji mühitin mürəkkəbləşdiyi belə bir şəraitdə yeni fəlsəfi, sosial-siyasi fikir cərəyanı-sufilik (təsəvvüf) meydana

gəlmiş (VIII yüzillikdə) və bütün müsəlman ölkələrində surətlə yayılmağa başlamışdır.

Mürəkkəb və çoxsaylı fikir cərəyanı olan sufilik orta əsrlər boyu ayrı-ayrı vaxtlarda müxtəlif ideya istiqaməti almışdır. İslam dini ideologiyası zəminində meydana gəlmiş sufiliyə şamanlıq, zərdüştlik, buddizm, xristianlıq, neoplatonizm və i.a. dini-fəlsəfi təlimlərinin təsiri istisna olunmur. Sufilikdə Çin və Hind fəlsəfəsinin də elementlərinə təsadüf etmək olar. IX-X yüzilliklərdə sufilik başlıca müxalifətçi cərəyanlardan biri hesab edilmişdir.

İslamın ideoloji cərəyanları içərisində stfatiliyi, qədəriliyi, cəbəriliyini, mötəzililiyi və əşəriliyi qeyd etmək olar.

Müsəlman hüququnun əsas mənbələri hesab olunan Quranın və Sünnənin şaquli hakimiyyət münasibətlərini tənzim edən çox az norma tanıyır. Nə Quranda, nə də Sünnədə müsəlman dövltinin təşkilini və fəaliyyətini tənzim edən konkret norma və göstərişlər ehtiva olunmamışdır.

Başqa sözlə Qurunda və Sünnədəmüsəlman dövlətinin məzmununu və mahiyyətini müəyyən edən normaların demək olar ki, yoxluğu ayrı-ayrı təriqətlər tərəfindənmüsəlman dövlətinin idarəçilik forması (dövlət qurluşu) ilə bağlı müxtəlif mülahizələrin irəli sürülməsinə səbəb olmuşdur. Bundan savayı, müsəlman hüququnun xatırladan mənbələrində «dövlət», «idarəçilik forması» terminlərinə də təsadüf olunmur. Həmin mənbələrdə yalnız «imamət» (ilkin mənası-«dua etməyə rəhbərlik») və «xilafət» («varislik») anlayışlarına təsadüf edilir. Bu anlayışlar əsasən müsəlman dövlətinin adlandırılması üçün işlədilmişdir. Xilafətin təşkili və fəaliyyəti prinsipləri müsəlman hüquqşünas- alimləri tərəfindən Məhəmməd Peyğəmbərdən bir neçə əsr sonra, Quranın və Sünnənin xilafətdə ali hakimiyyətin Peyğəmbər və onun təfsiri əsasında müəyyən edilmişdir.Müsəlmn hüququ təliminin əsas kaieqoriyasını iki qarşılıqlı əlaqəli aspektdə nəzərdən keçirən xilafət olmuşdur. Xilafətə bir tərəfdən müsəlman dövlət hakimiyyətinin mahiyyəti, digər tərəfdən isə dövlətin spesifik norması kimi baxılmşdır. Xilafətə dair bütün təriflərin (definisiyaların) əsasında böyük ərəb dövlətşünas-mütəfəkkiri Əl-Mərrinin mövqeyi durur.onun fikrincə, imamət imamın müdafiəsində və dünyəvi işlərə rəhbərlikdə peyğəmbərlik vəzifəsinin varisliyidir. Müasir müəlliflr məhz bu anlayışıvn əsasında bel bir nəticəyə gəlirlər ki, xilafət heç nə müəyyən bir şəxsin müsəlman dövlətinin başçısı taxt-tacındakı fərdi hüququndan və ya imtiyazlarından ibarət deyildir. O, ali dünyəvi hakimiyyətin (siyasi hakimiyyətin) həyata keçirilməsi və müsəlman icması səviyyəsində inamı saxlamaq üzrə müəyyən funksyalardan ibarətdir. Müsəlman siyasi konsepsiyasında xilafətin mənşəyi problemlərinin həlli mühüm yer tutmuşdur . Müsəlman mutəfəkkirlərinin əksəriyyətinin fikrincə, xilafətin hakimiyyətinin təsdiqi zəruridir həm müsəlman dövləti başçısına və seçilən, xəlifəyə nəzarət edən icma nümayəndələrinə , həm də bütün müsəlmanlara həvalə edilən vəzifələrdən ibarətdir . Xilafətin məcburiliyi haqqında nəticələrin təsdiqində müsəlman dövlətşunasları həm dini ehkamları, həm də xalis məntiqi dəliləri irəli sürmüşdür .

Bütün bu göstərilənlər orta əsrlərdə Azərbaycanda dövlətin idarəçilik forması ilə əlaqədar məsələdə heç bir rol oynamamışdır . Lakin siyasi hüquqi fikirdə, xüsusi ilə bu fikrin qanun və qanunçuluqla bağlı hissəsində öz izlərini qoymuşdur .

Azərbaycan siyasi hüquqi fikirdə qanun və qanunçuluğa dair ideyalara ,ümumiyətlə isə hüquq sistemində islamın siyasi və hüquqi ideologiyasının təsiri özünü , hər şeydən əvvəl ,sosial-iqtisadi və inzibatiidarəçilik sahəsində büruzə vermişdir . Xilafət işğal etdiyi digər ölkələr kimi , Azərbaycanıda əvvələr öz qanunları

, hüquq normaları vasitəsilə idarə etmişdir. Şübhəsiz ki, bu, ilk növbədə Öz qayda-qanunlarını məğlub etdiyi xalqa qəbul etdirməkdən və islamı yaymaqdan irəli gəlmişdir . Təsadüfi deyildir ki, xilafət böyük iqtisadi və strateji əhəmiyyəti olan Azərbaycanda Öz hakimiyyətini möhkələşdirmək üçün islam dinindən və şəriət normalarından ən kəsərli vasitə kimi istifadə etmişdir.

Qeyd etmək lazımdır ki , Azərbaycan şah hakimiyyətinə , üsul- idarəsinə tabe oldğundan burada inzibati idarəetmə qaydaları , torpaqdan istifadə...və i.a. ümumimperiya qanunları əsasında idarə olunurdu. Lakin xilafət siyasət və dövləti idarəetmə təcrübəsi cəhətdən inkişaf etmiş bir sıra dövlətlərdən, o cümlədən Bizans imperiyasından , eləcə də məğlub etdiyi İrandan geriyə qalırdı. Ona görə də xilafət işğal etdiyi ərazilərdə, o cümlədən Azərbaycanda ilk vaxtlar özlərinə qədər mövcud olmuş idarəçilik qaydalarıni saxlamaq və tətbiq etmək məcburiyyətində qalmışdır . Bunun üçün də Səsanilər çoxəsrlik dövlətçilik təcrübəsini mənimsəməkdən ötrü xilafətə vaxt zaman lazım gəlmişdir.

...Səsanilərin hakimiyyəti dövründə verilmiş qanunların hamısı torpaq mülkiyətinin, siniflərin toxunulmazlığına və müqəddəsliyinə xidmət edirdi. Deməli, xilafətin birinci olaraq bu qanunlardan istifadə etməsi,fikrimizcə, heç bir şübhə doğura bilməz . İşğal edilmiş ərazilərdə islamın təsir dairəsi genişlənsə də, xilafətin rəsmi inzibati idarəçilik orqanları ilə yerli əhali arasında mübahisə və münaqişələr meydana çıxırdı . Belə məsələlərin həllində Səsanilərin adət hüquq normaları tətbiq edilirdi. Mənbələrdə göstərilir ki, ərəb tarixçiləri...öz əsərlərini yazarkən Səsanilər dövründə pəhləvi dilində yazılmış müvafiq əsərlərdən geniş istifadə etmişlər. Pəhləvi dilli əsərlərdə isə başlıca olaraq dövrün ictimai defisyası hadisələri təsvir edilmişdir. Lakin bu əsərlər. Içərisində ictimai münasibətinlərin müxtəlif sahələrini tənzim edən norma və qanunlar da öz əksini tapmışdı. Belə ki, ərəb tarixçisi Məshudi Fars və Girmandan əldə etdiyi Pəhləvi dili əsərlər içərisində "Kahnamak"("Gahnamə") və "Ainnamak" ("Ainnamə") kitablarının da adını çəkmişdir.

Xilafətt Azərbaycandakı hökmranlığı dövründə həmin kitablarda ehtiva olunan qanunlardan, habelə ictimai münasibətləri tənzim edən adət hüquq normalarından geniş durətdə istifadə etmişdir.

Azərbaycanda geniş işğalı dövründə, ehtimal ki , ərəblərin dövləti idarəetmə işlərində istifadə etdikləri hüququ materiallardan biri də Mxitar

Qoşun «Qanunnamə»si olmuşdur. Uzaqgörən dövlət xadimi və ağıllı siyasətçi, sərkərdə Cavanşirin hakimiyyəti (636-680-ci illər) dövründə Albaniya ölkəsi nəinki bizansların və iranlıların, həm də ərəblərin hücumundan qurtula bilmiş və dövlətin müstəqilliyi qorunub saxlanmışdır. Lakin Cavanşirin ölümündən sonra xilafət Azərbaycanın daxili siyasətini tədricən sıxışdıra bilmişdi. Albaniya vassalıq hüququnu itirdikdən sonra hakimiyyət əslində formal xarakter daşıyırdı və ölkəni xilafətin (xəlifənin) təyin etdiyi canişinlər idarə edirdi.

Qeyd etmək lazımdır ki, alban hüquq sisteminin böyük əhəmiyyətə malik abidələrdən sayılan Mxitar Qoşun «Qanunnamə»sində o dövrün hüquq normaları kristallaşmış, alban cəmiyyətinin müxtəlif sinif və təbəqələrinin sosial və hüquq münasibətləri öz əksini tapmışdır." Tarixdən məlum olduğu kimi, VIII yüzilliyin əvvəllərində islam dini çevrildiyi şəraitdə Albaniyanın bir hissəsində xristianlıq dini əvvəlki mövqeyini saxlaya bilmişdi. Lakin buna baxmayaraq, Azərbaycanın demək olar ki, əksər hissə-sində islam dini özünə vətəndaşlıq qazanmışdı. Belə bir cəhəti do göstərmək zəruridir ki, islam dininin, habelə onun siyasi-hüquqi ideologiyasının Azərbaycanın siyasi və hüquqi fikrinə təsiri düzünə deyil, dolayı şəkildə təzahür

etmişdir. Məlum olduğu kimi, istər islamın erkən, istərsə də orta əsrlər dövründə müsəlman dünyasında qanunyaratma (hüquqyaratma) fəaliyyəti son dərəcə passiv səciyyə daşımışdır. Bu isə, fikrimizcə aşağıdakı səbəblərlə izah oluna bilər.

Əvvələn, ortodoksal şəriətdən fərqli olaraq islam aləmində adi xalq məhkəmələrinin icraçıları, yəni ədalət mühakiməsini həyata keçirən məmurlar ilahiyyatçı hüquqşünaslar (faqihlər) deyil, nüfuzlu varlı feodallar, tayfa başçıları-şeyxlər və ağsaqqallar idi. Mübahisəli məsələlərin hüquqi vasitələrlə həlli yollarını bilməyən bu şəxslər insan taleyini öz şəxsi mülahizələrinə əsasan həll edirdilər. Törədilmiş ictimai təhlükəli əməlin tövsifinə dair mənbələrdə normanın və ya göstərişin olmadığı hallarda isə vəziyyət daha acınacaqlı şəkil alırdı. Belə ki. lazımi hüquqi mexanizmin olmadığı şəraitdə təqsirkar şəxs hökm verənin heç bir normaya əsaslanmayan (maddi hüququn hər hansı normasına heç bir istinad olmadan) və prosessual qayda ilə müəyyən edilməyən fitvasının qurbanı olurdu. Göstərmək zəruridir ki, ictimai həyatın başqa sahələrində şəriətlə yanaşı, yerli qanunlardan da istifadə şəriət normaları tətbiq edilirdi.

İkincisi, ortodoksal islamda ilahiyyatçı hüquqşünaslar islamın demək olar ki, bütün inkişaf mərhələlərində nəzərdə tutulan norma və göstərişlərin yalnız təfsiri, ya da şərhi ilə kifayətlənmişlər. Mənbələrdə nəzərdə tutulan normaların (Quranda və Sünnədə ehtiva olunan göstərişlərə gəldikdə isə, onlara edilməli olan əlavələrdən, yaxud dəyişiklərdən söhbət belə gedə bilməzdi) məzmununa heç bir yeni fikir, mülahizə əlavə edilməmişdir. Bunun nəticəsidir ki, hüquqyaratma müsəlman hüququ üçün bir növ fəaliyyət sahəsi olmuşdur. Lakin xilafətin istər Azərbaycanda hökmranlığı dövründə, istərsə də Azərbaycanın öz dövlət müstəqilliyini əldə etməsindən sonra qabaqcıl fikirli ziyalılar mütərəqqi məzmunlu ictimai-siyasi və hüquqi ideyalarını yaymaqda davam etmişlər. Bundan başqa, bəzi mütəfəkkirlər və müxtəlif dini-fəlsəfi cərəyanların ayrı-ayrı nümayəndələri islamın siyasi ideologiyasının mürtəce cəhətlərinə qarşı müxalifətdə olmuşlar. Doğrudur, həmin mütəfəkkirlərin ictimai-siyasi və hüquqi görüşləri, ideyaları bilavasitə qanun və qanunçuluq problemləri ilə bağlı olmasa da, onların konsepsiyaları xatırladılan problemlərin də müəyyən cəhətlərinə toxunmuş və hər şeydən əvvəl, mütərəqqi mövqeyə malik olan həmin mütəfəkkirlər bütövlükdə xalqın mənafelərini müdafiə etmişlər.

Öz növbəsində islamın ictimai-siyasi və hüquqi ideologiyasının xidmətçiləri də qabaqcıl görüşlü mütəfəkkirlərə qarşı ideoloji hücumlara keçmişlər. Qabaqcıl fikirli mütəfəkkirlər nəinki təqib olunmuş, hətta amansız cəzalara (xüsusilə də cismani cəzalara) məruz qalmışlar. Öz vətənində işğalçı və zülmkarların ədalətsiz qanunları ilə yaşamaq istəməyənlər, öz ölkəsini və xalqının azadlığı, müstəqilliyi uğrunda mübarizə aparan fədailər dinsiz və kafir adlandırılmış, təhqir edilmiş və cismani cəhətdən məhv edilmişlər.

Məsələn, Allahla insanın eyniliyi fikrini irəli sürən, «ənəlhəqq» («mən haqqam») söyləyən Hüseyn ibn Mənsur Həllac (858-921-ci illər) dinsizlikdə təqsirləndirilərək Bağdad zindanına salınmış, mühakimə olunduqdan sonra dəhşətli surətdə edam edilmişdir. Yaxud Azərbaycanda işraqilik fəlsəfəsinin banisi, aləmin «heçdən xəlq edilməsi» ideyasının məntiqi cəhətdən əsassız olduğunu qeyd etmiş böyük filosof və hüquqşünas Şihabəddin Yəhya Sühərvərdi (1154- 1191- ci illər) bidətçilikdə ittiham olunaraq edam edilmişdir.

Şərq peripatetizminin görkəmli nümayəndələrindən olan Əbülhəsən Bəhmənyar Mərzban oğlu (993- 1066- ci illər) də bütün təbiət hadisələrinin və hətta,

insanın zehni qabiliyyətinin inkişafının təbii səbəblə bağlı olduğunu izah etməyə səy göstərmişlər. Elmi araşdırmaları mütəfəkkiri belə bir nəticəyə gətirmişdir ki, insan ağlı şeylərin xaricindən doğan inikaslarla birlikdə inkişaf edir və təkmilləşir.

Fəlsəfi biliyin faydasına əxlaqi keyfiyyət baxımından yanaşan Bəhmənyarın fikrincə, qazanılmış hər bir bilik insanın mənəviyyatını zənginləşdirməyə, onda gözəl məziyyətlər aşılamağa xidmət etməlidir, əks halda həmin bilik faydasızdır.

Beləliklə, göründüyü kimi, Azərbaycanın qabaqcıl fikirli mütəfəkkirləri islamın ideoloji ehkamları ilə razılaşmır və belə hesab edirdilər ki, insan zəkası obyektiv gerçəkliyi dərk etmək qabiliyyətə malikdir.

VIII-XI yüzilliklərin mütərəqqi məzmunlu ictimai-siyasi və hüquqi fikri üçün mövcud quruluşun nöqsanlarının kəskin tənqidi səciyyəvi olmuşdur. Şübhəsiz ki, həmin tənqid elmi əsaslar üzərində qurulmamışdı. Çünki sosial inkişafın qanunauyğunluqlarının elmi əsaslarının hələ kəşf edilmədiyi erkən orta əsrlərdə mövcud ictimai-siyasi quruluşun tənqidi Elmi səciyyə daşıya bilməzdi. Lakin buna baxmayaraq, həmin tənqid qabaqcıl və mütərəqqi məzmuna malik olmuşdur.

Göründüyü kimi, siyasi-hüquqi ideologiyada məzmununa görə bir-birindən fərqli olan iki istiqamət ictimai şüura birgə, paralel şəkildə təsir göstərirdi. Belə qütbləşmə özünü ictimai həyatın bütün sahələrində, o cümlədən qanunyaratma fəaliyyəti sahəsində də büruzə verirdi.

Beləliklə, azərbaycanın siyasi və hüquqi fikir tarixində mühüm problem olan qanun və qanunçuluğa dair görüşlərə islamın siyasi-hüquqi ideologiyasının təsirindən danışarkən, hər şeydən əvvəl, islam dininin Azərbaycanda yayılmasının tarixi şəraiti nəzərə alınmalıdır.

Orta əsrlərdə Azərbaycanda tam hömüran olan islamın siyasi hüquqi ideologiyasının qabaqcıl fikirli mütəfəkkirlərimizin siyasi və hüquqi dünyagörüşünə təsir göstərməsi danılmazdır. Lakin mühüm bir cəhəti də nəzərə almaq lazımdır ki, başlıca olaraq fəlsəfi problemlərin təhlili ilə məşğul olan Azərbaycan mütəfəkkirləri ilahi qüvvənin varlığını qəbul etsələr də, bir çox sosial hadisələrin mənşəyi və mahiyyətinin şərhində obyektiv elmi-empirik mövqelərdən çıxış edirdilər. Bu baxımdan qanun və qanunçuluq problemi də istisnalıq təşkil etmir.

Məlumdur ki, islamın Azərbaycanda hakim dinə çevrilməsi eyni zamanda da dövlət səviyyəsində baş verən proseslərdən biri idi. Ona görə də hökmdarlar, hətta bəzi dövlət əhəmiyyətli məsələlərin həllində nüfuzlu din xadimlərinin uyğun hərəkət etməli idilər. Söhbətin qanunla əlaqədar problem haqqında getdiyi halda isə, qeyd etmək zəruridir ki, istər şah fərmanları, istərsə də dünyəvi xarakterli qanunvericilik normaları şəriətin müəyyən etdiyi çərçivədən kənara çıxmalı idi. Şəriət normalarının üstün mövqe tutması ədalət mühakiməsinin həyata keçirilməsi sahəsində daha aydın şəkildə təzahür edirdi.

Azərbaycanda feodal ictimai münasibətlərinin çiçəklənditi dövrdə ədalət mühakiməsinin nisbətən dünyəvi xarakter almasına baxmayaraq, şəriət məhkəmələrinin xüsusi çəkisi heç də aşağı düşməmişdi. Təsadüfi deyildir ki, din əleyhinə olan bir çox cinayətlərə bərabər tutulur, mühakimə icraatı buna uyğun olaraq şəriətlə müəyyən edilmiş qayda da həyata keçirilirdi. Digər tərəfdən, ədalət mühakiməsini həyata keçirən qazılar (dini hakimlər) bilavasitə dövlət başçısı tərafindən təyin edilirdi. Deməli, dövlətin özü şəriət normalarının mühakimə icraatında aparıcı roluna şərait yaradırdı. Dşvlət tərəfindən verilən qanunlar islamın ehkamlarına uyğunlaşdırıldığı üçün qanunçuluğun təminatı şübhə altına alınırdı. Çünki islam aləmində mühakimə icraatı özünəməxsus spesifik üsulla həyata

keçirilirdi. İbtidai istintaqı tanımayan şəriət normalarına uyğun olaraq, işlərin istintaqı və onlara məhkəmə baxışı proses çərçivəsində yerinə yetirilirdi. Başqa sözlə, ədalət mühakiməsi mərhələli sistemə malik deyildi. Belə şəraitdə isə qanunçuluğa əməledilməsindən söhbət belə gedə bilməzdi.

Məlum olduğu kimi, feodal-patriarxal quruluşu qanunlarının mahiyyətini hökmdarların hakimiyyətinə, hökmlərinə danışıqsız itaət etmək, onlara mütiliklə tabe olmaq tələbi təşkil edir. Üstəlik də cəmiyyət üzvlərini dini ehkamların xofu ilə vahimələndirmək, onları qorxu altında saxlamaq dövlətin yetirdiyi daxili siyasətin tərkib hissəsi idi. Doğrudur, islam dininin nüfuzlu qulluqçuları dini ideologiyadan ictimai təhlükəli əməllərin qarşısının alınması, onların aradan qaldırılması məqsədilə də istifadə etmişlər və bu, ideoloji baxımdan yalnız müsbət hal kimi qiymətlədirilə bilərdi. Lakin belə idioloji təsir, qanunların məzmunundakı sərtlik ilk növbədə yoxsul təbəqəyə, rəiyyətə qarşı yönəldilmişdi. O dövrün islam dini ruhunda olan qanunları eyni əmələ görə yoxsulu dəhşətli cəzaya məruz qoyur, əksər hallarda isə varlıya, mənsəbpərəstlərə bəraət qazandırırdı. Ona görə də dövlət səviyyəsində, hər şeydən əvvəl, hökmranlıq üçün istifadə olunurdu.

Islamın təsiri altında verilmiş dövlət qanunlarının əksəriyyətinin sanksiyasından cismani cəzalar nəzərdə tutulurduə gözün çıxarılması, əlin, barmaqların, ayağın və qulağın kəsilməsi XII-XVI əsrlər feodal Azərbaycanında ədalət mühakiməsinin adi mənzərəsinə çevrilmişdi.

Həmin tarixi şəraitdə Azərbaycan xalqının humanist fikirli ziyalı və mütəfəkkirləri dövlətin xalqa zülmetmə siyasətini qətiyyətlə pisləmiş, cəmiyyətin ədalətli qanunlarla idarə, qanunçuluğa əməl olunmasını, o cümlədən islam dinin insanpərvər ideyalarına riayət edilməsini qətiyyətlə tələb etmişlər. Məsələn, XI əsrin şair mütəfəkkiri yazırdı: "Cəllad, sənin ağır zülmün dözülməzdir". Məhsəti xanım Gəncəvi isə "şər törədənin şər görəcəyini" təsdiq edirdi.

Azərbaycanda VIII-XI yüzilliklərin dini ideologiyasına qarşı müxalifət mşvqelərində dayanan mütərəqqi ictimai-siyasi və hüquqi fikir, eləcədə mütəfəkkirimizin qanun və qanunçuluq problemləri ilə bağlı ideyaları sonrakı dövrlərdə (XII-XVI yüzilliklərdə) azadfikirliliyin inkişafına, habelə marifçiliyin formalaşmasına, humanist və demokratik məzmunlu siyasi-hüquqi ideyaların meydana gəlməsinə ciddi təsir göstərmişdir.

## ƏDƏBİYYAT

1. Məmmədov Zkir. Azərbaycan Fəlsəfəsi tarixi. Bakı.1994,s.26-27.
2. "Abu-Xalid Al-Qazali" kitabına giriş. Voskreşenie nauk o vere. M,1980,s.81
3. Krımskiy A.E. Nizami ieqo sovremenniki. Baku, 1981,s.198.
4. Azərbaycan tarixi, I-ci cild. Bakı, 1994, s.237.
5. Fazil Abulla. Azərbaycanın qədim və ilk orta əsrlər tarixi İran tarixşünaslığında. Bakı, 1984,s.41.
6. M. Məmmədi. Fərhənge İran və təsire an dər təməddone islam və ərəb. Tehran, 1954,s.140 (farsca).
7. Məmmədova Fəridə. Azərbaycanın siyasi tarixi və tarixi coğrafiyası. Bakı, 1993,s.17.
8. Məmmədov Zakir. Azərbaycan Fəlsəfəsi tarixi.s.33.
9. Yenə orada,s.111.